Peşə təhsili və insan kapitalı. Cild 9, №1, 2026, s.109-113

# PEŞƏ TƏMAYÜLLÜ TƏHSİL: GƏNCLƏRİN GƏLƏCƏYİNƏ YÖNƏLİK STRATEGİYA



**Gülbəniz Şirinbəyova,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin mütəxəssisi*
*e-mail: g.shirinbeyova@arti.edu.az*
*https://doi.org/10.30546/2706-7858.2026.1.267*

**UOT:** 377

**Xülasə.** *Məqalədə "Peşə təmayüllü siniflərin təşkili" layihəsi çərçivəsində təlimlərin planlaşdırılması və həyata keçirilməsinin təşkilindən, təhsilalanların öyrənmə imkanlarının genişləndirilməsindən, gənclərin gələcəyinə yönəlik, eləcə də həyata keçirilən strategiyaların təhlilindən danışılır.*

***Açar sözlər:*** *peşə təmayüllü təhsil, karyera, bilik iqtisadiyyatı, məktəb-peşə təhsili müəssisəsi-müəssisə, nəzəri və praktiki təlimlər.*
***Keywords:*** *vocational-oriented classes, career, knowledge economy, school-vocational institution-enterprise, theoretical and practical training.*
***Ключевые слова:*** *профессионально-ориентированные классы, карьера, экономика знаний, школа-профессиональное училище-предприятие, теоретическое и практическое обучение.*

Qlobal əmək bazarında sürətlə baş verən dəyişikliklər, texnoloji yeniliklər və sənayeləşmənin artması təhsilin bütün pillələrində çevik, məqsədyönlü yanaşmalar tələb edir. Bu baxımdan, peşə təmayüllü təhsil sistemi müasir dövrün sosial-iqtisadi tələblərinə cavab verən mühüm istiqamətlərdən biri kimi çıxış edir. Peşə təhsili yalnız əmək bazarının ehtiyaclarını araşdırmaqla kifayətlənmir, eyni zamanda gənclərin erkən yaşlarından etibarən bacarıq və vərdişlər qazanaraq gələcək karyeralarına uğurla başlamalarına şərait yaradır.

***Karyera nədir və niyə əhəmiyyətlidir?***

Karyera sadəcə bir iş tapmaq deyil, insanın maraq, bacarıq və dəyərlərinə uyğun peşə istiqaməti seçməsi və bu istiqamətdə sistemli şəkildə özünü reallaşdırma, məmnuniyyət, şəxsi və peşəkar inkişaf etməsidir. Bununla yanaşı, karyera insanın həyat yolunu və gələcək perspektivlərini müəyyənləşdirir, ona məqsədyönlü fəaliyyət göstərmək, cəmiyyətə fayda vermək və öz potensialını tam şəkildə həyata keçirtmək imkanı yaradır.

**Karyeranın əhəmiyyəti aşağıdakı məqamlarla izah olunur:**

*– karyera şəxsin həyatında və cəmiyyətin inkişafında mühüm rol oynayır;*

*– karyera insana bilik və bacarıqlarını inkişaf etdirmək, öz potensialını kəşf etmək və yaradıcılığını reallaşdırmaq imkanı yaradır;*

*– uğurlu karyera şəxsin cəmiyyətdə nüfuzunu və sosial statusunu artırır;*

*– dayanıqlı və uğurlu karyera müntəzəm gəlir, sosial təminat, gələcək planların qurulması və yüksək həyat səviyyəsinin təmin olunması üçün əsas şərt sayılır;*

*– insan ictimai həyata daha fəal şəkildə qoşulur və başqaları üçün nümunə olur;*

*– karyerada uğur əldə edən insanlar cəmiyyətdə hörmət və nüfuz qazanırlar;*

*– peşəkar sahədə tanınmaq insana ictimai əlaqələr qurmaq dairəsini genişləndirir və ictimai fayda yaratmaq imkanı verir;*

*– karyera insanlara həyatda istiqamət verir, gələcəyə dair planlar qurmaqda kömək edir və davamlı inkişaf üçün motivasiya yaradır.*

Əlavə olaraq onu da qeyd edə bilərik ki, karyera təkcə gəlir mənbəyi deyil, insanın cəmiyyətə verdiyi töhfə və öz həyatında yaratdığı izdir. Peşəkar karyeraya nail olmağın fonunda "bilik iqtisadiyyatı" dayanır. Bilik iqtisadiyyatı biliklərin intensiv və səmərəli istifadəsinə əsaslanan iqtisadiyyatdır. Əgər əvvəlki dövrlərdə torpaq, əmək və kapital iqtisadi artımın başlıca resursları idisə, bu gün bilik iqtisadiyyatında innovasiya, təhsil, elmi tədqiqatlar, yaradıcı düşüncə, intellektual əmək və rəqəmsal texnologiyalar daha çox üstünlük təşkil edir. Rəqəmsal texnologiyaların sürətli inkişafı hərtərəfli hazırlıqlı, yüksəkixtisaslı peşəkar kadrlara olan ehtiyacı daha da artırır. Bu səbəbdən 2016–2019-cu illərdə Azərbaycanda peşə təhsili üzrə islahatlar sürətləndi, "Peşə təmayüllü siniflərin təşkili" layihəsi gündəmə gəldi və bu istiqamətdə bir sıra qanunlar, sərəncamlar və normativ-hüquqi sənədlər qəbul edildi.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın beş strateji istiqamətlərindən biri peşə təhsilinin keyfiyyətinin artırılması, əmək bazarına uyğun kadr hazırlığının təmin edilməsi, eləcə də 2016-ci il 6 dekabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" qəbul edilərək peşə təhsilinin infrastrukturunun yenilənməsi, işəgötürənlərlə əməkdaşlığın gücləndirilməsi, peşə təmayüllü siniflərin yaradılması kimi məsələləri əhatə etmişdir. 2018-ci il 24 noyabr tarixində qəbul edilən "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunu isə peşə təmayüllü siniflərin hüquqi əsasını müəyyən etdi, "məktəb-peşə müəssisəsi" əməkdaşlığına şərait yaratdı. Qanunda peşə təhsili sisteminin peşə təmayüllü təhsillə əlaqəsi, modulyar təhsil proqramları və əmək bazarı ilə inteqrasiyası vurğulanır. Fikrimizcə, "Məktəb-peşə təhsili müəssisəsi-müəssisə" modelinin yaradılması və tətbiqi aşağıdakı istiqamətlər üzrə mərhələli şəkildə həyata keçirilərsə, bu, daha məqsədəuyğun olardı:

*– peşə təmayüllü siniflərin sayının artırılması;*

*– infrastrukturun və tədris bazasının müasirləşdirilməsi;*

*– işəgötürənlərlə əməkdaşlıq müqavilələrinin bağlanılması;*

*– tədris proqramlarının təkmilləşdirilməsi və müasir dövrün tələblərinə uyğunlaşdırılması;*

*– beynəlxalq əməkdaşlıqların genişləndirilməsi;*

*– "dual (ikili) təhsil" modelinin (təhsil müəssisəsində nəzəri, müəssisədə praktiki hazırlıq) genişləndirilməsi;*

*– normativ-hüquqi bazanın təkmilləşdirilməsi.*

"Məktəb-peşə təhsili müəssisəsi-müəssisə" modelinin təməlində Avropa ölkələrinin (Almaniya) "Dual təhsil" modeli, sovet dövrünün texniki-peşə məktəbi təcrübəsi və yerli əmək bazarının tələbləri dayanır. Modelin əsas məqsədi gəncləri əmək bazarına daha çevik, səmərəli, hazırlıqlı və rəqabətqabiliyyətli hazırlamaqdır. Almaniya ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən "dual təhsil sistemi" peşə təhsilinin ən müasir formalarından biri kimi ölkəmizdə geniş tətbiq olunur. Məsələn, ölkəmizdə Almaniyanın "Spar-kassenstiftung" Fondu və "Agri Kontakte" təşkilatı ilə birgə reallaşdırılan proqramlar Azərbaycan tələbələrinin beynəlxalq səviyyədə bilik və bacarıqlarının artırılmasına şərait yaradır. Beynəlxalq səviyyədə təsdiqlənmiş təcrübələrin ölkəmizdə geniş tətbiqi müəllimlərə tədrisin effektivliyini artırmasına və bunun nəticəsində də tələbələrin nailiyyətlərinin yüksəldilməsinə imkan yaradır.

Modelin məqsədi təhsil və istehsalat arasında sıx inteqrasiya yaratmaqdır. Belə ki: *məktəblərdə şagirdlərə ilkin karyerayönümlü bilik və bacarıqlar verilir; peşə təhsili müəssisələrində konkret ixtisaslar üzrə nəzəri və praktiki təlimlər*

*həyata keçirilir; müəssisələrdə isə gənclər real iş mühitində təcrübə keçərək əmək bazarının tələblərinə uyğun peşə bacarıqlarına yiyələnirlər; burada əsas məqsəd təhsil sistemini əmək bazarının ehtiyaclarına uyğunlaşdırmaq, gənclərin erkən yaşlardan peşəyönümünü formalaşdırmaq; işəgötürənlərlə əməkdaşlıq əsasında kadr hazırlığı prosesini gücləndirmək; işsizlik səviyyəsini azaltmaq və yerli kadr potensialını, insan kapitalını inkişaf etdirməkdir.*

Qloballaşma dövründə müəllimlərin rolu yalnız bilik verməklə məhdudlaşmır, onlar eyni zamanda cəmiyyətin gələcəyini formalaşdıran əsas şəxslərdir. Tələbələrin keyfiyyətli təhsil almasını təmin etmək üçün səriştəli müəllimlərin hazırlanmasına, eləcə də onların davamlı peşəkar inkişafı üçün ömürboyu öyrənmə imkanlarının artırılmasına ehtiyac vardır. Bu məqsədlə təkrar təhsil və ixtisasartırma proqramlarına sərmayə qoymaq və bu imkanlardan səmərəli şəkildə istifadə etmək olduqca vacibdir. Müəllimlərin lazımi bilik, bacarıq və pedaqoji texnika ilə təmin edilməsi təlim proqramlarının dəyişən təhsil tələblərinə və iş şəraitinə uyğunlaşmasına, tələbələrin müxtəlif ehtiyaclarının qarşılanmasına, onların sosial və emosional inkişafının dəstəklənməsinə, XXI əsr bacarıqlarının formalaşdırılmasına və təhsildə bərabərsizliyin aradan qaldırılmasına imkan yaradır. Bu yanaşma, həmçinin təlimin məzmununun tədqiqatlara və innovativ təcrübələrə əsaslanaraq davamlı şəkildə yenilənməsini tələb edir. Bu məqsədlə 2024–2025-ci illərdə Azərbaycan Respublikası Təhsil İnstitutunun Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin təşkilatçılığı ilə “Peşə təmayüllü siniflərin təşkili” layihəsi çərşivəsində mütəxəssislərdən ibarət işçi qrupu yaradılmış və layihə üzrə təlimlərin keçirilməsinə dair Çərçivə sənədi hazırlanmışdır. Bu sənəd təlimlərin əsas istiqamətini, təlim proqramının məzmununu, iştirakçıların öyrənmə nəticələrinin qiymətləndirilməsi üsullarını, eləcə də təlimin effektivliliyini ölçmək üçün meyarları özündə əks etdirir. Peşə təmayüllü siniflər üçün keçiriləcək təlimlərin planlaşdırılması və həyata keçirilməsi prosesində bu sənəd müəllimlərə və qrup rəhbərlərinə təlimə ehtiyac duyulan mövzuların müəyyənləşdirilməsi və həmin ehtiyacların qarşılanması istiqamətində strukturlaşdırılmış dəstək təqdim edir. Ümumilikdə təlimlərin keçirilməsində əsas məqsəd təlim iştirakçılarının təhsilalanlara daha effektiv şəkildə bilik və bacarıqları çatdırmalarını təmin etmək, onların öyrənməsini stimullaşdırmaq və nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlarını da inkişaf etdirməkdir. “Peşə təmayüllü siniflərin təşkili” layihəsinin təlim proqramları **iki** hədəf qrupu üzrə müəyyənləşdirilir:

- ixtisas fənn müəllimlərinin təlimi
  (nəzəri və praktiki təlimlər)
- qrup rəhbərlərinin təlimi
  (nəzəri təlimlər)

***İxtisas fənn müəllimlərinin təlimləri*** iki istiqamətdə aparılmışdır. Buraya ixtisas fənn müəllimlərinin *metodiki səriştəliliyinin artırılması üzrə təlim* proqramı və *ixtisasartırma üzrə praktiki təlim* proqramı daxildir. İxtisas fənn müəllimlərinin nəzəri və praktiki təlimləri hər qrupda ixtisasa uyğun olaraq müvafiq sayda fənn müəllimlərinin iştirakı ilə, ixtisasartırma təlimləri isə müvafiq ixtisaslar üzrə fəaliyyət göstərən sənaye müəssisələri ilə əməkdaşlıq çərçivəsində həyata keçirilmişdir.

***Qrup rəhbərləri üçün təşkil olunan komanda quruculuğu təlimlərinin*** məqsədi yeni başlayan qrup rəhbərlərinə layihə haqqında ətraflı məlumat vermək və onların yumşaq bacarıqlarını inkişaf etdirməkdən ibarətdir.

Müəllimlərin ömürboyu öyrənmə imkanlarının genişləndirilməsi yalnız onların fərdi inkişafına deyil, ümumilikdə təhsilin keyfiyyətinə, şagird nailiyyətlərinə və cəmiyyətin inkişafına xidmət edir. Bu səbəbdən davamlı peşəkar inkişaf siyasəti dövlət və cəmiyyət üçün prioritet istiqamət olmalıdır. Əqli və fiziki əməyin yaxınlaşması, istehsalat və texnologiyaların təşkilində köklü dəyişikliklər, eləcə də elm və texnikanın dinamik inkişafı yalnız peşələrin yenilənməsini deyil, həm də peşəyönümlü işlərin genişləndirilməsini və ibtidai siniflərdən başlayaraq məqsədyönlü və mərhələli şəkildə düzgün təşkilini və tədrisini tələb edir. İbtidai siniflərdə texnologiya və təsviri incəsənət fənlərinin hərtərəfli və səmərəli təşkili peşəyönümlü işlərin başlanğıc

nöqtəsini təşkil edir. Peşəyönümü fəaliyyətinin gücləndirilməsi, peşəkar kadr hazırlığının kəmiyyət və keyfiyyət baxımından bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması həlli vacib olan məsələlərdəndir. Bu səbəbdən şagirdlərin peşələrə istiqamətləndirilməsi üçün onları müxtəlif peşə sahələri ilə tanış etmək, dərslərdə praktiki fəallığı artırmaq, yaradıcı xarakterli tapşırıqların icrasına həvəsləndirmək və bu işlərin təşkilinə əlverişli şərait yaratmaq ən zəruri vəzifələrdəndir. Dərslərdə praktiki fəallığa, yəni əyaniliyə üstünlük verilməsi şagirdlərdə müxtəlif bacarıq və vərdişlərin formalaşmasına, dərketmənin güclənməsinə, idrak fəallığının artmasına, əxlaqi-mənəvi keyfiyyətlərin düzgün istiqamətə yönəlməsinə şərait yaradır və gələcək peşə seçimlərinə müsbət təsir göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 22 iyul tarixli, 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda peşə təhsilinin əhatə dairəsinin və keyfiyyətinin artırılması gənclərin əmək bazarına çıxışının asanlaşdırılması, həmçinin peşə təmayüllü təhsilin əlverişli insan kapitalının formalaşdırılmasının əsas vasitələrindən biri kimi vurğulanır.

Ölkəmizdə 2019–2020-ci tədris ilindən etibarən ümumi təhsil müəssisələrinin X-XI siniflərində Təhsil Nazirliyinin dəstəyi ilə 4 istiqamət – xidmət, təmir-tikinti, kənd təsərrüfatı və İKT profillərini əhatə edən 16 ixtisas üzrə peşəyönümlü tədris aparılır. “Peşə təmayüllü siniflərin təşkili” layihəsinin icrasına başlanıldıqdan sonra müasir təhsil infrastrukturu və peşəyönümlü tədris resursları yaradılmışdır. Bu layihə çərçivəsində şagirdlər həm ümumi təhsili tamamlayır, həm də konkret peşə bacarıqları əldə edirlər. Layihənin davamlı olaraq əhatə dairəsi artırılır və gələcəkdə daha da genişləndirilməsi planlaşdırılır. Bütün bunlara baxmayaraq aşağıdakı bəzi çatışmazlıqların mövcudluğu da müşahidə olunmaqdadır:

– *kadr çatışmazlığı, ixtisaslı mütəxəssislərin azlığı;*

– *əqli mülkiyyətin qorunması, hüquqi mexanizmlərin zəifliyi;*

– *araşdırma maliyyələşdirməsinin azlığı, tədqiqatlar üçün resurs məhdudluğu;*

– *rəqəmsal bərabərsizlik, regionlarda internet və texnologiyalara çıxışın bərabərsizliyi;*

– *təhsil sistemində çeviklik və əmək bazarına uyğunluq problemləri;*

– *maddi-texniki bazanın vaxtında təminatı və müasirləşdirilməsi problemləri.*

***Müasir çağırışlar və perspektivlər***

Peşə təmayüllü təhsilin qarşısında duran əsas çağırışlar arasında aşağıdakıları qeyd etmək olar:

– *valideyn və ictimaiyyət arasında peşə təhsilinə qarşı bəzi stereotiplərin hələ də qalması;*

– *ənənəvi təhsilin dominant olması ilə bəzən peşəyönümlü istiqamətlərin inkişafının ləngiməsi;*

– *müəllim-kadr çatışmazlığı və tədris proqramlarının bəzən qeyri-müasir olması.*

Bütün bu çətinliklərin aradan qaldırılması üçün dövlətin və qeyri-hökumət sektorunun birgə fəaliyyəti, işəgötürənlərlə əməkdaşlıq və tədrisin rəqəmsallaşdırılması perspektivləri genişləndirilməlidir. Qeyd etmək lazımdır ki, peşə təmayüllü təhsil “məktəb – peşə təhsili müəssisəsi – müəssisə” əlaqəsinə əsaslanaraq şagirdlərin peşəyə marağını əhəmiyyətli dərəcədə artırır. Bu yanaşma sayəsində onlar həm seçdikləri peşə üzrə bilik qazanır, həm də həmin bilikləri real iş şəraitində tətbiq etməyi öyrənirlər. Nəticədə şagirdlər gələcək peşələrinə daha yaxşı hazırlaşır, iş tapmaq imkanları da artır. Eyni zamanda bu model gənclərin əmək bazarının dəyişən tələblərinə uyğun peşəkar hazırlığının təmin olunmasına, onların gələcək karyera imkanlarının genişlənməsinə və peşə təhsilinin keyfiyyət göstəricilərinin yüksəldilməsinə xidmət edir.

Bütün qeyd olunanlar onu göstərir ki, müasir dövrdə təsviri incəsənət və texnologiya dərslərinin ibtidai siniflərdə şagirdlərin ilkin peşəyönümlü fəaliyyətinə təsiri çox böyükdür və bu, gələcəkdə onların seçdikləri peşənin sirlərinə daha mükəmməl, peşəkarcasına dərindən yiyələnmələrinə geniş imkanlar açaraq yüksək səviyyəli professional kadrların hazırlanmasına şərait yaradacaqdır.

**Nəticə.** Peşə təmayüllü siniflərin effektivliyi praktiki məşğələlərin təşkilindən çox asılıdır. Bu tip siniflərdə məktəb-sənaye əməkdaşlığı, peşəkar ustad dərsləri, müəssisələrdə istehsalat təcrübələrinin təşkili şagirdlərə öyrəndiklərini real

həyatda tətbiq etməyə imkan verir. Bu da onların motivasiyasını artırır və daha məqsədyönlü karyera planlaşdırmasına şərait yaradır. Həmçinin müasir texnologiyanın sürətli inkişafı təhsil sisteminin, xüsusilə də peşə təmayüllü siniflərin yenilənməsini zəruri edir. Əmək bazarında rəqəmsal savadlılıq, texniki bacarıqlar və informasiya texnologiyalarından istifadə qabiliyyəti getdikcə daha çox tələb olunur. Ona görə də peşə təmayüllü siniflərin tədris proqramlarında rəqəmsal bacarıqların inkişafı əsas prioritetlərdən biri olmalıdır.

İnanırıq ki, müəllimlərin ömürboyu öyrənmə imkanlarının genişləndirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, şagird nailiyyətlərinin artırılması, davamlı peşəkar inkişaf siyasətinin, eləcə də gələcəyə yönəlik strategiyaların həyata keçirilməsi gənclərin uğurlu karyera seciminə zəmin yaradacaqdır.

## İstifadə edilmiş ədəbiyyat


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı.
2. Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-ci il 06 dekabr tarixli Fərmanı.
3. Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı.
4. Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi Qaydası. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 may tarixli Qərarı.
5. İsmayıllı A.S. Karyera (mənsəb) və onun planlaşdırılması (magistr dissertasiyası). Bakı, 2018.
6. İlyasov M. Peşəyönümünün əsasları (dərs vəsaiti). Bakı, “Mütərcim” nəşriyyatı, 2011.
7. Aslanov Z. Müasir iqtisadi inkişafda və rəqabət üstünlüyünün təmin olunmasında biliklərin rolu. “Peşə təhsili və insan kapitalı” jurnalı, 2025, c.8, №1, s.53-61.
8. Dadaşov İ. Xüsusi məktəblərdə imkanları məhdud uşaqların peşəyönümlü fəaliyyətlərinin təşkili “Peşə təhsili və insan kapitalı” jurnalı, 2025, c.8, №2, s.15-19.
9. Sadıxlı M.N. Peşə təhsilində yeni ixtisasların tədrisi zamanın tələbidir. “Peşə təhsili və insan kapitalı” jurnalı, 2024, c.7, №3, s.13-17.


**G.Shirinbeyova**

## Vocationally-oriented education as a future-oriented strategy for youth

**Abstract**

The article discusses the organization of planning and implementation of training within the framework of the project “Organization of Vocational-Oriented Classes,” the expansion of learners’ educational opportunities, as well as the analysis of strategies aimed at supporting the future development of young people.

**Г.Ширинбекова**

## Профессионально-ориентированное образование как стратегия, направленная на будущее молодежи

**Аннотация**

В статье рассматриваются вопросы организации планирования и проведения обучения в рамках проекта «Организация профессионально-ориентированных классов», расширения образовательных возможностей обучающихся, а также анализ стратегий, направленных на поддержку будущего молодёжи.